## *MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRVİYƏ*

UOT 373.2.

**_Tərana Buta qızı Sadıqova,_**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

**_Sevil Əhməd qızı Cəmilzadə,_**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAĞIN İNTELLEKTUAL İNKİŞAFINA AİLƏNİN TƏSİRİ

**_Тарана Бута гызы Садыгова,_**
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Государственный Педагогический Университет*

**_Севиль Ахмед гызы Джамильзаде,_**
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Государственный Педагогический Университет*

# ВЛИЯНИЕ СЕМЬИ НА ИНТЕЛЛЕКТУАЛЬНОЕ РАЗВИТИЕ РЕБЕНКА ДОШКОЛЬНОГО ВОЗРАСТА

**_Tarana Buta Sadiqova,_**
*doctor of Philosophy in pedagogy, associate professor*
*Azerbaijan State Pedagogical University*

**_Sevil Ahmed Jemilzade,_**
*doctor of philosophy in pedagogy, associate professor*
*Azerbaijan State Pedagogical University*

# THE İNFLUENCE OF THE FAMİLY ON THE İNTELLECTUAL DEVELOPMENT OF A PRESCHOOL CHİLD

**Xülasə:** Bu məqalədə məktəbəqədər yaşlı uşağın inkişafına ailənin təsirinin zəruriliyi əks olunur. Müəllif uşağın ailədə intellektual inkişafının təmin edilməsi üçün valideynlərin pedaqoji biliklərə malik olmasının vacibliyini şərh edir. Bu məsələdə məktəbəqədər təhsil müəssisəsi, xüsusilə də tərbiyəçi valideynlərə kömək etməli, onlara istiqamət verməlidir. Validevnlər məktəbəqədər müəssisələrdə təlim-tərbiyə proqramı, əqli inkişaf üzrə vəzifələrlə tanış edilməli, müntəzəm olaraq uşaqların gündəlik öyrəndikləri yeni mövzularla maraqlanma məsləhət görülməlidir.
***Açar sözlər:*** *məktəbəqədər yaşlı uşaq, intellektual, inkişaf, ailə, təsir*

**Резюме:** В данной статье излагается необходимость влияния семьи на развитие ребенка дошкольного возраста. Автор комментирует важность педагогических знаний родителей для обеспечения интеллектуального развития ребенка в семье. Следует отметить, что в этом отношении дошкольное образовательное учреждение, особенно воспитатели, должны помогать родителям. Родители должны быть знакомы с программами подготовки дошкольного образования, регулярно консультировать детей при изучении новых тем.
***Ключевые слова***: *дети дошкольного возраста, интеллектуальный, развитие, семья, воздействие*
**Summary:** This article outlines the necessity of family influence on the development of a preschool child. The author comments on the importance of parents' pedagogical knowledge to ensure the child's

intellectual development in the family. It should be noted that in this regard preschool educational institution, especially tutor, should help and direct the parents. Familiar with preschool education training programs, regularly advise children to deal with new topics they are learning.

***Key words:*** *children of preschool age, intellectual, development, family, impact*

Məktəbəqədər dövrdə biliklərin toplanması, nitqin formalaşması prosesi sürətlə gedir, uşaq əqli fəaliyyətin sadə üsullarına yiyələnir. Məktəbəqədər yaşlı uşağın intellektual inkişafının təmin edilməsi onun sonrakı fəaliyyəti üçün böyük əhəmiyyət kəsb edir.

Məktəbəqədər təhsilin proqramında (kurikulumu) (10 iyul 2012) dörd inkişaf sahəsi (fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik, idrakın inkişafı, estetik və yaradıcı inkişaf, sosial-emosional inkişaf) üzrə yeni məzmun həyata keçirilir. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı ilə bağlı məsələlər idrakın inkişafı (inkişaf sahəsi) adlı bölmədə əks olunmuşdur. Həmin sənəddə qeyd olunur ki, məktəbəqədər yaşlı uşaqlarda idrakın inkişafı onlarda öyrənməyə həvəs və maraq formalaşdırır.

Məktəbəqədər yaşlı uşağın idrak fəaliyyətində sistemlilik, ardıcıllıq, əlaqəlilik, həyat şəraitinə uyğunluq, mühüm şərt hesab olunur. Məktəbəqədər yaş dövründə uşaq idrakın inkişafı baxımından, ilk növbədə, sadə danışıq dilinə və rabitəli nitqə yiyələnir, ətrafdakılarla ünsiyyət qurur, öz fikirlərini təqdim etməyi öyrənir. Uşaqlar təmasda olduqları əşyaların adlarını, əlamətlərini, necə hərəkət etməsini düzgün ifadə edir, bu istiqamətdə məntiqi mühakimə yürütmək, düzgün, sadə ümumiləşdirmələr aparmaq, əqli nəticəyə gəlmək qabiliyyəti nümayiş etdirir. İdrak üzrə uşağın yerinə yetirdiyi tapşırıqlar onların məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyasını, məkan və zaman haqqında təsəvvürlərini genişləndirir. Riyazi tapşırıqların həlli zamanı uşaqlarda induksiya və deduksiya, ümumiləşdirmə və konkretləşdirmə, analiz və sintez, təsnifetmə və sistemləşdirmə, mücərrədləşdirmə və analogiya kimi mühakimə qabiliyyətləri inkişaf edir.

Bununla bağlı aşağıdakı ümumi inkişaf və təlim nəticələri nəzərdə tutulur. Uşaq nitqi dinləyib anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir; sadə riyazi-məntiqi əməliyyatları yerinə yetirir; əşya və hadisələr haqqında ilkin təsəvvürlərə malik olur və anlayışları izah edir; səbəb-nəticə əlaqələrini müəyyən edir və fərziyyələr irəli sürür; sadə təqdimatlar edir.

Uşağın intellektual inkişafı sosial mühitin təsiri altında baş verir. Bu baxımdan onun intellektual inkişafına ailənin təsiri böyükdür. Uşaqlar ailədə dünyaya göz açır, tərbiyənin əsasları məhz burada qoyulur. Ailə şəxsiyyətin formalaşmasına böyük təsir göstərir.

Uşağın ailədə intellektual inkişafının təmin edilməsi üçün valideynlərin pedaqoji biliklərə malik olması vacibdir. Bu məsələdə məktəbəqədər təhsil müəssisəsi, xüsusilə də tərbiyəçi valideynlərə kömək etməli, onlara istiqamət verməlidir. Tərbiyəçi valideynləri məktəbəqədər müəssisələrdə təlim-tərbiyə proqramı, əqli inkişaf üzrə vəzifələrlə tanış etməli, müntəzəm olaraq uşaqların gündəlik öyrəndikləri yeni mövzularla maraqlanmağı onlara məsləhət görməlidir.

Tərbiyəçi valideynlərə uşaqları haqqında vaxtaşırı məlumat verməli, evdə uşaqlarla necə məşğul olmağı izah etməli, ailədə uşağın həm çalışması, həm də istirahət etməsi üçün vaxt müəyyən edilməsini, gündəlik rejim tərtib olunmasını tapşırmalıdır.

Tərbiyəçi valideynlərə izah etməlidir ki, uşağın intellektual inkişafını təmin etmək üçün ona həddən artıq nəzarət edilməməli, müstəqillik verilməlidir. A.S. Makarenko yazmışdır: “Əgər uşağı həmişə “pedaqoji kəndirdə” tutub saxlasaq tərbiyə üçün çox vaxt tələb olunur. Daim himayəçilik, valideynlik qayğısı onun iradəsini iflic edir. Elə tərbiyə yalnız zərər verir, o qeyri-fəal və zəif iradəli adamlar formalaşdırır.” Çalışmaq lazımdır ki, uşaq kiçik yaşlarından öz gücünə inansın, müstəqil hərəkət etsin, başqalarından kömək gözləməsin. Prof. Y.Ş. Kərimov valideynlərin uşaqla məşğul olarkən onun fəaliyyətinə rəhbərliyin üç növünü qeyd edir: “1. Uşaq valideynin (yaşlının) fəaliyyətini əks etdirir; valideyn hər şeyi necə yerinə yetirəcəyini incəliklərinə qədər izah edir, uşaq sadəcə olaraq onu yamsılayır.

2. Uşağın fəaliyyəti yaşlı ilə eyni vaxtda (sinxron) yerinə yetirilir. Hər kəs ayrıca işləyir

(məsələn, plastilindən fiqur düzəldir), nəticəni tutuşdururlar. Bəzən birgə yerinə yetirirlər.

3. Uşaq daha fəal axtarıcılıq situasiyasına alınır. Tapşırıq tam müstəqil yerinə yetirilir. Bacarmadıqda valideyn ikinci yola qayıdır."

Bəzən valideynlərin uşaqlara laqeyd münasibəti, tələblərdə vahidliyin gözlənilməməsi, uşağın intellektual inkişafına mənfi təsir göstərir. V.A. Suxomlinski ailənin tərbiyəvi imkanlarını insan gözəlliyini doğuran sehrli qüvvə ilə müqayisə etmişdir. Ailədə pedaqoji tələblərdə vahidlik gözlənildikdə bu qüvvə ailənin mənəvi sərvətinə çevrilə bilər.

Tərbiyəçilər valideyn iclaslarından, fərdi söhbətlərdən istifadə etməklə valideynləri pedaqoji biliklərlə silahlandırmalıdırlar. Valideynlər də tərbiyəçinin ailə tərbiyəsinə dair məsləhətlərinə əməl etməli, pedaqoji-psixoloji ədəbiyyatla tanış olmalı, bu sahədə nümunəvi ailə təcrübəsini öyrənməli, təhlil etməli, vətənimiz üçün layiqli övladlar yetişdirmək üçün yeni yollar axtarmağa səy göstərməlidirlər.

A.S. Makarenko deyirdi: "Siz həmişə valideyn olduğunuzu yadda saxlamalı və bilməlisiniz ki, oğlunuzu, yaxud qızınızı yalnız öz sevinciniz üçün tərbiyə etmirsiniz. Sizin ailənin və sizin rəhbərliyiniz altında gələcək xadim və gələcək mübariz böyüyür. Siz pis adamlar tərbiyə etsəniz, bunun bəlasını yalnız özünüz deyil, bir çox adamlar və bütün ölkə çəkəcəkdir..."

N. Tusi "Əxlaqi-Nasiri, "Kitabi-Mədarik", "Təlimül-mütəəlim" və s. kimi əsər və risalələrində əqli tərbiyə, bilik, zəka, təhsil və elm haqqında çox geniş danışmışdır. Tusi əqli tərbiyə məsələsində "məqamlar" haqqında danışaraq, üstünlüyü o adamlara xas bilir ki, onlar öz əqli, qüvvəti düşüncələri vasitəsilə gözəl sənətlər, dəqiqi ixtisaslar qazanaraq, yaratdığı praktik şeylərlə vəteninin tərəqqisini təmin edirlər. əqli öyrətməyi, onu tədricən inkişaf etdirməyi müəllimlərin əsas vəzifəsi sayırdı.

Valideynlərlə birgə gəzinti və oyun zamanı uşaqların dünyagörüşünün genişlənməsi, nitq inkişafı, idrak proseslərinin formalaşması üçün əlverişli şərait yaranır. Valideynlər gəzinti zamanı uşaqların dünyagörüşünün genişləndirilməsi üzrə iş aparmalı, onların diqqətlərini ətraf aləmdəki əşya və hadisələrə yönəltməli, adlarını, mahiyyətini öyrətməli, bununla bağlı uşaqların qarşısında suallar qoymalı, onların suallarına cavab verməlidir.

Məşhur fransız yazıçısı Corc Sand öz xatirələrində yazır: "Mənim anam gözəl bir bulud parçasını və ya günəşin gözəl bir şəkildə batmasını, şır-şır axan suyu gördükdə məni dayandırıb deyərdi: "Bax bu nə qədər gözəldir!" Bəlkə anam diqqətini yönəltməklə buraxmalı olacağım bütün şeyləri tam gözəlliyi ilə hiss etməyə məcbur edirdi. Anamın əlində elə bil sehr açarı vardı".

Tərbiyəçi valideynlərə müşahidələrin məzmunu, yerli şəraitdə uşaqların doğma təbiətlə tanışlığı ilə bağlı məlumat verməlidir. Müşahidə təhliledici olmalı, onların təfəkkürlərinin və nitqlərini inkişaf etdirməlidir. Müşahidə prosesində uşağa müstəqillik verilməlidir. Valideyn uşaq üçün kitab oxuması da onların əqli inkişafına müsbət təsir göstərir. Düzgün seçilmiş bədii əsərlər uşaqları cəmiyyət, onda baş verən hadisələrlə tanış edir, təbiət hadisələri haqqında bilik və təsəvvürlər formalaşdırır. Valideynlərə izah edilməlidir ki, uşaqlara evdə hansı ədəbiyyat oxumalıdırlar.

Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsi üzrə ailədə iş apararkən xalqımızın fikir və mülahizələrindən: "Ağıl yaşda deyil, başdadır", "Əl işlər, baş buyurar", "Adam başdan tanınar", "At yeriməklə yol alar, insan bilməklə", "Qazancım ata-anamındır, öyrəndiyim özümünkü", "Göz görmək, baş bilmək üçündür", "Hədiyyələrin ən gözəli ağıldır", "Qüvvə hər şeyi, ağıl qüvvəni sındırır", "Allahın adama qəzəbi tutanda əvvəlcə onun ağlını alır" və s. istifadə edilməsi faydalıdır. "Elm əqlin çırağıdır", "Yazan əl boş qalmaz", "Anasızlar yetim deyil, savadsızlar yetimdir" və i.a. deyən xalqımız əqli inkişaf üçün elmə, savada, biliklərə yiyələnməyi məsləhət görmüşdür.

İclaslarda, məsləhətlərdə, fərdi söhbətlər zamanı valideynlərə uşaqların suallarına cavab vermək, onların biliyə həvəslərini, əqli səylərini inkişaf etdirmək yolları öyrədilməlidir. K.D. Uşinski uşaqlarda əqli fəaliyyətin bir istiqamətdə inkişaf etdirməyi, lakin onlarda bu qabiliyyəti az-az, tədricən, ehtiyatla inkişaf etdirməyi, vaxtından əvvəl, həddən artıq güc göstərməməyi məsləhət görürdü.

Məktəbəqədər təhsil müəssisəsi ilə ailənin müntəzəm və səmərəli əlaqəsi məktəbəqədər

yaşlı uşaqların intellektual inkişafının müvəffəqiyyətlə həyata keçirilməsini təmin edir.

**Məqalənin elmi yeniliyi**: Məqalədə məktəbəqədər yaşlı uşağın intellektual inkişafına ailənin təsiri ilə bağlı fikirlər təhlil olunmuş, həmçinin təlim-tərbiyə işinin keyfiyyətinin yüksəldilməsinə xidmət edən mühüm məsələlər əsaslı şəkildə göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**: Məqalədə əldə olunmuş nəticələr məktəbəqədər yaşlı uşağın intellektual inkişafının səmərəli təşkili üçün əhəmiyyətlidir. Bu nəticələr məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasında keçirilən iclasda əməkdaşların nəzərinə çatdırılmışdır.

**Ədəbiyyat:**

1. Məktəbə hazırlığın təşkili qaydaları. 2010 , 8 yanvar
2. Məktəbəqədər təhsilin proqramı (kurikulumu). 2012, 12 iyul
3. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı, 2000.
4. Sadıqova T.B., Əliyeva Z. Məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkili. Bakı: Nərgiz, 2010.

**E-mail:** t.sadiqova2013@ya.ru

**Rəyçilər**: *ped.ü.fəls.dok., dos.* M.A. İbadova
*ped.ü.fəls.dok.* L.N. Nağıyeva
**Redaksiyaya daxil olub:** 13.11.2018